*AMEA Filologiya və sənətşünaslıq, 2023, № 2* *ISSN 2663-4368*
*Səhifə: 103-110* *E-ISSN 2709-2699*
*https://doi.org/10.59849/2663-4368.2023.2.103*

# MƏMMƏDHÜSEYN ƏLİYEVİN HEKAYƏLƏRİNDƏ HƏYAT HƏQİQƏTLƏRİNİN BƏDİİ ƏKSİ

**Xalidə Rəhimova**
Lənkəran Dövlət Universiteti. Azərbaycan.
E-mail: qumu_88@mail.ru

**Annotasiya.** XX əsrin 60-90-cı illərində Lənkəran ədəbi mühitinin formalaşmasında danılmaz xidmətləri olan yazıçılardan biri də Məmmədhüseyn Əliyev olmuşdur. Ədəbi yaradıcılığa şeirlə başlayan M.Əliyev sonralar nəsrə keşmiş, nasir və dramaturq kimi Azərbaycan və keşmiş Sovetlər İttifaqında geniş oxucu rəğbəti qazanmışdır. Hekayə janrının M.Əliyev yaradıcılığında xüsusi yeri vardır. "Kənd müəllimi" adlı ilk mətbu hekayəsi 1957-ci ildə "Azərbaycan müəllimi" qəzetində çap olunan ədibin on bir hekayəsi daxil edilmiş müstəqil hekayələr kitabı "Lənkəran hekayələri" adı ilə 1967-ci ildə "Gənclik" nəşriyyatında nəşr edilmişdir. Bu hekayələrdə həm ulu xalqın qəhrəmanlıq səhifələri, həm qanlı müharibənin vurduğu yaralar, həm müəllim ömrünün mənalı illəri, həm də gənc yazıçıların rastlaşdığı çətinliklər və s. öz əksini tapmışdır.
"Lənkəran hekayələri" kitabında çıxmış "Narınc xanım", "Əvəz", "Sevinc", "Nə isə çatışmır", "Sonrakı peşmançılıq" hekayələrində Lənkəran torpağının ab-havası, onun tarixi keçmişi və bu günü, adamlarının zəhmətsevərliyi və qonaqpərvərliyi, ümumiyyətlə, Cənub bölgəsinin mərkəzi sayılan Lənkəran ədəbi mühitinin doğurduğu ovqat açıq-aydın hiss olunur.
Yazıçının sonrakı illərdə qələmə aldığı və müxtəlif mətbuat orqanlarında nəşr etdirdiyi "İmzasız" , "Dəmir arxa", "Müəllim", "Saçaqlı şal", "Sərəncam", "Hampa oğlu", "İmtahan", "Kötük", "Xəyanət", "Hesabdar Əlibaba", "Axırıncı imtahan" və s. hekayələrini yazıldığı illərdən asılı olmayaraq, ümumi bir ruh birləşdirir: həyat həqiqətlərinə sadiqlik, cəmiyyəti bürüyən yaramazlıqlara qarşı etiraz.
M.Əliyevin hekayələrinin tədqiqi belə bir nəticəyə gəlməyə imkan vermişdir ki, o, digər janrlarda yazdığı nəsr əsərlərində olduğu kimi, hekayələrində də həyatın burulğanlarında formalaşan insan xarakterlərinin təsvirinə üstünlük vermiş, həyat həqiqətlərinə sadiq qalaraq, bir qayda olaraq, nəticə etibarı ilə xeyirin şər üzərində qələbə çalmasını arzulamış, oxucularını həqiqət, işıqlı əməllər uğrunda mübarizəyə səsləmişdir.
**Açar sözlər:** ədəbi mühit, hekayə janrı, ləyaqət, mövzü, tarixi keçmiş

**Məqalə tarixçəsi:** göndərilib – 16.11.2023; qəbul edilib – 29.11.2023

# ARTISTIC REFLECTION OF THE TRUTHS OF LIFE IN MAMMADHUSEYN ALIYEV'S STORIES

**Khalida Rahimova**
Lankaran State University. Azerbaijan.
E-mail: qumu_88@mail.ru

**Abstract.** In the 60s and 90s of the 20th century, Mammadhuseyn Aliyev was one of the writers who had an indisputable contribution to the formation of the Lankaran literary environment. M.Aliyev, who began his literary career with poetry, later became a prose writer and as a prose

writer and dramatist he gained wide readership in Azerbaijan and the former Soviet Union. The story genre has a special place in M.Aliyev's creativity. The first published story "Village teacher" was published in “Azerbaijan teacher” newspaper in 1957 and the independent story book “Lankaran stories” was published in 1967 in “Ganjlik” publishing house, which included eleven stories of the writer. In these stories, the heroic pages of the great nation, the wounds caused by the bloody war, the meaningful years of a teacher's life, the difficulties faced by young writers, etc. has found its reflection.

In the stories “Narinj khanim”, “Avaz”, “Sevinj”, “Something is missing”, “The last regret” published in the book “Lankaran stories”, the climate of the Lankaran land, its historical culture and today, the hard work and hospitality of its people, in general, created by the Lankaran literary environment, which is considered the center of the region, is clearly felt.

The stories “Unsigned”, “Iron support”, “Teacher”, “Fringed shawl”, “Decree”, “Hampa oghlu”, “Exam”, “Stem”, “Betrayal”, “Treasurer Alibaba”, “Final Exam” etc. which the writer wrote in the following years and published in various media outlets are united by a common spirit regardless of the years in which these stories were written: loyalty to the truths of the past, protest against the vices that plague the society.

The study of M.Aliyev's stories allowed us to come to the conclusion that, as in his prose works in other genres, he preferred the description of human character formed in the whirlwinds of life in his stories, and by sticking to the truths of life, as a rule, he wished that good would triumph over evil in the end, called the readers to fight for truth and enlightened actions.

**Keywords:** literary environment, story genre, merit, theme, the historical past

**Article history:** received – 16.11.2023; accepted − 29.11.2023

## Giriş / *Introduction*

XX əsrin ortalarında Lənkəranda ədəbi mühitin formalaşmasında çox mühüm xidmətləri olan yazıçılardan biri yarandığı vaxtdan (1982) ömrünün sonuna qədər (6 iyun 1994-cü il) Azərbaycan Yazıçılar İttifaqının Lənkəran şöbəsinin məsul katibi işləmiş Əməkdar incəsənət xadimi Məmmədhüseyn Əliyev olmuşdur.

Azərbaycan və keşmiş Sövetlər İttifaqı oxucularının yazıçı-dramaturq kimi tanıdığı M.Əliyev XX əsrin qırxıncı illərinin ortalarında ədəbi yaradıcılığa şeirlə başlamış, müxtəlif mətbuat orqanlarında bir sıra poetik əsərlər çap etdirmiş, əllinci illərin ortalarından isə nəsrə keçmiş, hekayə, roman, povest və dram əsərlərinin müəllifi kimi məşhurlaşmışdır.

## Əsas hissə / *Main Part*

Hekayə janrının M.Əliyev yaradıcılığında xüsusi yeri vardır. “Kənd müəllimi” adlı ilk mətbu hekayəsi 1957-ci ildə “Azərbaycan müəllimi” qəzetində çap olunan ədibin müxtəlif illərdə yazdığı hekayələri yaşadığı illərin ab-havasını yüksək sənətkarlıq və yazıçı-vətəndaş qeyrəti və səmimiyyəti ilə əks etdirmək baxımından maraq doğurur. Yazıldığı illərdən asılı olmayaraq, bu hekayələri ümumi bir ruh birləşdirir: həyat həqiqətlərinə sadiqlik, cəmiyyəti bürüyən yaramazlıqlara qarşı etiraz.

M.Əliyev 1957-1966-cı illər arasında yazdığı və “Azərbaycan müəllimi”, “Azərbaycan gəncləri”, “Kolxoz yolu”, “Leninçi”, “Bolluq uğrunda” qəzetlərində çap etdirdiyi bir sıra hekayələrini toplayaraq, 1967-ci ildə “Gənclik” nəşriyyatında nəşr etdirmişdir [1]. Kitaba ədibin on bir hekayəsi daxil edilmişdir ki, “Həcm etibarilə kiçik olmasına baxmayaraq, burada verilmiş hekayələr mövzu cəhətdən rəngarəngdir. Burada həm ulu xalqın qəhrəmanlıq səhifələri (“Narınc xanım”), həm qanlı müharibənin vurduğu yaralar (“Əvəz”), həm müəllim ömrü-

nün mənalı illəri ("Sevinc"), həm də gənc yazıçıların rastlaşdığı çətinliklər ("Nə isə çatışmır") və s. öz əksini tapmışdır. Mövzunun uğurlu bədii həlli isə bütün hekayələrin başlıca məziyyətidir. Bu baxımdan hər hekayə öz bədii səviyyəsi ilə oxucunu qane edir" [11, s.4].

"Lənkəran hekayələri" kitabında çıxmış hekayələr haqqında danışarkən professor Məsud Məmmədov (Məsudi Dövran – X.R.) haqlı olaraq yazır: "Bu əsərlər Lənkəran torpağının abhavası, onun tarixi keçmişi və bu günü, adamlarının zəhmətsevərliyi və qonaqpərvərliyi, ümumiyyətlə, Cənub bölgəsinin mərkəzi sayılan Lənkəran ədəbi mühitinin doğurduğu ovqat üstündə köklənmişdir" [10, s.64].

Kitaba daxil edilmiş hekayələrdəki mövzuca rəngarəng olan  surətlər xarakterləri və həyata baxışları ilə biri digərindən fərqlənən canlı insan obrazlarıdır. "Sonrakı peşmançılq" hekayəsindəki Həsrət nə qədər sadəlövh və sözə inanandırsa, Məcid o qədər fırıldaqçı və tamahkar adamdır. Məcidin vədlərinə aldanıb onun təklif etdiyi məsul vəzifəni qəbul edən Həsrət çox keçmir ki, ona tapşırılan xalq malını müdirinin təhriki ilə çapıb-talayan birinə çevrilir. Özünün bu işdə xeyiri olmasa da, Məcidin əlində alətə çevrilən bu şəxs cinayət işlədir. Elə bir vəziyyət yaranır ki, Həsrət nəinki Məcidin tamahkarlığına qarşı mübarizə aparmır, hətta ona müqavimət göstərməyi belə bacarmır. Axırda Həsrət cinayət məsuliyyətinə alınaraq, məhkəmə qarşısında dayanmalı olur. Məcid isə guya bu işlərdən xəbəri yox kimi, Həsrətin günahkar çıxarılıb cəzalandırılmasını tələb edir.

"İmzasız" hekayəsinin qəhrəmanı ilk baxışda "Sonrakı peşmançılıq" əsərindəki Həsrətə bənzəsə də, onun öz aləmi, öz dünyası var. Onu Həsrət kimi sadəlövh adlandırmaq olmaz. Mətləbin şirin dilinə, vədlərinə aldanan bu adam yüksək dövlət qulluğu qazanmaq eşqi ilə ərizəbazlığa qurşanır. Bu məqsədlə uzun illər çiyin-çiyinə çalışdığı dostundan imzasız məktublar yazaraq mərkəzə yollayır. Əvvəlcə tərəddüd edən Qəmbəri, əslində, vicdanının ləkələnməsi deyil, gözlədiyi nəticənin alınmaması qorxudur. Yüksək vəzifə alacağı xəyalı ilə alışıb-yanan, imzasız məktubları ard-arda mərkəzə yola salan Qənbər Mətləbə deyir: "Nə cür tapşırmısan, elə də eləmişəm. Sözümdən dönən deyiləm. Ancaq atalar sözüdür: "Şər deməsən, xeyir gəlməz". Birdən qaş düzəltdiyimiz yerdə vurub göz çıxarmayaq. Biz vuraq, özgəsi götürməsin. Başıma nə gəlirsə, gəlsin, təki onu dəbərdib məni yerinə qoysunlar" [11, s.66].

Beləliklə, "ucuz şöhrət xatirinə kişiliyini, qeyrət və namusunu da zərflə bərabər qutuya atan Qənbəri yazıçı öz kəskin sözləri ilə atəşə tutur və onu da Mətləb və Məcid kimi şəxsiyyətini itirən, hər şeyi pulda görən məxluqlarla bir tutur" [11, s.66].

Yazıçının "Dəmir arxa" hekayəsinin mövzusu XX əsrin 70-ci illəri üçün ölkəyə xas olan təsərrüfat həyatından götürülmüşdür. Zavoda yenicə direktor təyin olunan Qəşəm, dayısı və qayınatası olan Səməndərin məktubu ilə Şirəhmədi zavoda xəzinədar təyin etmiş, əslində, təsərrüfatın idarə olunmasını bir növ ona həvalə etmişdir. Qəşəm özü istəmədən quruluşun yetirməsi olan Şirəhmədin tilsiminə düşmüş, onun yağlı dilinə, "Mən də, balalarım da, biz hamımız sənə və Səməndərə quluq. Nəbadə mənə deməmiş zavodda çöpü çöp üstünə qoyasan. Nabələd yerdir. Adamları tanımazsan, səni aldada bilərlər. Mən şaçımı burada ağartmışam. Neçə müdir yola salmışam... Sənin bir tükün əskik olsa, mən Səməndərin qarşısında cavab verməliyəm", – deyə aldanaraq "özü direktor stolunda otursa da, samovar kimi Şirəhmədin işığı ilə alışıb yanır, zavodun işlərini onun sözləri ilə tamamlayırdı" [2, s.4].

Əslində, Qəşəm pis adam və pis rəhbər deyil. Ona tapşırılan işlərin öhdəsindən gəlməyə çalışır və kollektivi yaxşı tanımadığı üçün Şirəhmədin əlində alətə çevrilir. Şirəhməd isə ona göstərilən etimaddan sui-istifadə edərək, xoşu gəlməyənləri "demaqoq" adlandıraraq Qəşəmin gözündən salır. Qəşəmin ürəyinə şübhə toxumları səpib onları cücərtməyə çalışan Şirəhməd min hoqqadan çıxır ki, rəhbərliklə kollektiv arasında birlik, səmimiyyət yaranmasın. Lakin vicdanı onu rahat buraxmayan Qəşəm özündə güc taparaq Şirəhmədin məsləhətinin əksinə hərəkət edir, zavod kollektivinin ümumi yığıncağını çağırır və bir çox məsələlərə bu yığıncaqda aydınlıq gətirilir. Qəşəmə aydın olur ki, kollektivdə narazılıq salan, işçilərin əlini işdən soyudan Şirəhmədin "demaqoq", "köhnə müdirin quyruq-

ları" adlandırdığı adamlar deyil, Şirəhmədin özüdür.

Ümumi yığıncaqda Şirəhmədin iç üzü tokar Səfərin çıxışında açılır. O deyir: "Kollektivimizdə bir çuğul, araqarışdıran var. O da bu Şirəhməddir. Biz xahiş edirik o, bu gündən etibarən zavoddan uzaqlaşdırılsın" [2, s.4].

Başqa bir fəhlə isə Şirəhmədin xislətini aşağıdakı kimi açır: "Şirəhməd həmişə özünü direktorun arxası kimi qələmə verir. İndi onun maskası açılıb, bic üzü görünür. Ondan zavoda arxa olmaz. Zavodun arxası kollektivdir" [2, s.4].

Hekayə Qəşəmin səhvini başa düşməsi ilə tamamlanır. O, ayağa qalxaraq deyir: "Zavodun arxası, həm də dəmir arxası sizsiniz, yoldaşlar, kollektivdir" [2, s.4].

M.Əliyevin "Müəllim" hekayəsinin qəhrəmanı bir gözünü 1941-45-ci illər müharibəsində itirmiş, lakin mənlik, ləyaqət və kişilk qürurunu itirməyən Şirzad müəllimdir. Müəllif onun şəxsində əsl insan, əsl müəllim, el qeyrəti çəkən bir ziyalı obrazı yaratmış, çətin günlərin kişisinə xas olan cəhətləri onun simasında ümumiləşdirmişdir. Müharibədən qayıdıb yeddisinfli kənd məktəbində direktor işləyən, "zəngdən zəngə, sinifdən sinfə adladıqca əldən düşən, ürəyinin şirəsi gedən, təbaşir tozu içində üzən, kitabları sətirlərinəcən şagirdlərindən soruşmayınca sakit olmayan" Şirzad müəllimi müəllif yalnız bir müəllim yox, həm də əsl insan, dar günün adamı kimi təsvir etmiş, onun parlaq obrazını yaratmağa müvəffəq olmuşdur. Hekayədə oxuyuruq: "Dərsdən sonra onu cəbhəçi ailələrinin evində pəncərə şüşəsi salan, ya da çardağa çıxıb evin daman yerini düzəldən görərdik. Şirzad müəllim kəndimizin bütün varlığına canlı bir nəfəs kimi daxil olmuşdu. O, məktəbin əyər-əskiyini də, sınan partaları, tökülən damları da şagirdlərin köməyi ilə özü düzəldərdi. Bizə də, camaata da ürək-dirək verərdi. Hamını inandırardı ki, bu çətin günlərin ömrü azdır, müharibə bizim qələbəmizlə qurtaracaq. Ürəklərdə ümid çırağı yandırardı. "Qara kağızı" gələnlərin ailələrinə elə təsəlli verərdi ki, hamı ona inanardı, ümidini itirməzdi" [3, s.3].

Bu hekayənin digər bir özəl və ibrətverici məqamı bütün zamanlar üçün yaşarı olan müharibələrin törətdiyi fəlakət və bu fəlakət zamanı əsl insanların ətrafdakı kimsəsizlərə, əlsiz-ayaqsızlara göstərdiyi təmənnasız yardımdır ki, müəllif bunları aclıqdan ölüm həddinə gəlmiş, ata-anasını itirmiş, bacısı ilə Allah ümidinə qalmış bir uşağın – Tərlanın keçirdiyi sarsıntılar və onun son məqamda Şirzad müəllimə pənah aparmasının təsviri ilə ustalıqla ümumiləşdirə bilmişdir.

Çıxılmaz vəziyyətə düşən uşaq müharibədə olan atasından yadigar qalmış saatı götürərək, gecəyarı Şirzad müəllimin evinə pənah aparır. İçəri girməyə cəsarət etməyən uşaq bacanın sınıq yerindən kənara süzülən işıqdan içərini seyr edir. Şirzad müəllim gözündən eynəyini çıxararaq arvadının peçin üstündə səpilmiş "ağ gilələri" – məkəbuğda – qarğıdalı puçullarını tuma qarışdıraraq əl dəyirmanında üyüdür, "una" çevirir. Bayırda hənirti duyan Şirzad müəllim ayağa qalxmaq istəyərkən uşaq içəri girir. Həmin məqamı yazıçı belə təsvir edir: "Məni mehriban qarşıladı. Məkəbuğda puçulunu peçin üstündə qurudub tumla qarışdırdığını, sonra da əl daşında çəkib necə un aldığını mənə izah elədi. Bu undan tavada lökü bişirmişdi. Sıxıla-sıxıla vəziyyətimizi deyəndən sonra lökündən birini, bu gecə çəkdiyi unun da hamısını mənə verdi. Elə bil mənə bir dünya bağışladı. Atamın saatını təqdim edəndə bərk incidi. Hətta kövrəldi də. Bu halı uzun çəkmədi. Vəziyyətdən tez çıxdı. Dedi atan mənə məktub yazıb ki, Tərlan saatımı heç kəsə verməsin. Mən gələnə...." [3, s.3].

Hekayədən çıxarılan nəticəni bir cümlə ilə belə ifadə etmək olar: məqsədindən asılı olmayaraq, bütün müharibələr bəşəriyyətə fəlakət gətirir və onların qarşısı vaxtında alınmalıdır.

Yazıçının 1971-ci ildə yazdığı "Saçaqlı şal" hekayəsinin mövzusu XX əsrin ortalarında, 1941-1945-ci illər Böyük Vətən müharibəsi kimi tarixə düşmüş və Azərbaycan əhalisinə sonsuz ağrı-acılar yaşadan əzablı illərdən alınmışdır. Bir tərəfdə aclıq əlindən zinhara gələn kəndistan əhalisi Səlbinaz xalanın simasında var-yoxunu, əlində olan-qalanını sataraq nəvələrini yaşatmaq, onların salamat qalmaları üçün həyatla pəncələşir, bir yanda müharibənin yaratdığı fəlakətlərdən bəhrələnən kolxoz sədri Yunus və arvadı Əcəbnisə kimilər insafsızcasına camaatın var-yoxuna sahib çıxırlar.

Nəvələri Sənubər və Rəhim acından ölməsin deyə, "illərdən bəri üfürə-üfürə, səliqə ilə saxla-

dığı saçaqlı şalı" altı tas arpaya dəyişməyə məcbur olan nənənin "Altı tas arpa onun ipək saçağının qiyməti deyil. Eyb etməz, kökə yeyən də vədəyə çıxar, tərə yeyən də.." [4, s.3] sözləri Əcəbnisəyə vurulan tərs şillə kimi səslənsə də, mahiyyət dəyişmir, tutduqları əməldən xəcalət şəkmək əvəzinə: "Onun ardınca xeyli baxan Əcəbnisə: - Əlbət bu işdən bir də olar, – deyib geri döndü" [4, s.3].

Yazıçının təsvirində Yunus və Səlbinaz kimi kəmfürsətlərlə yanaşı, Qönçə kimi dürüst adamlar da var. Ərini vaxtsız itirmiş, savadlı, əliəyri adamları görməyə gözü olmayan, yaşı əllini keçsə də, kənddə, sovetlikdə, hətta rayonda hamının "Qönçə bacı" dediyi, düzlüyünə, kəsərinə görə bir sözü iki olmayan bu qadın hekayədə az yer tutsa da, müəllif onu mükəmməl obraz səviyyəsinə qaldıra bilmişdir. Müəllif onun xarakterini Yunusa dediyi aşağıdakı cümlələrlə belə açır: "Nadürüst! Camaat davada qan tökür, Vətəni qoruyur, sən də cibini doldurursan, – deyib yük yerindən şalı aldı. Büküb Səlbinaz xalaya uzatdı. Sonra da cunayı açıb üstünə kandudakı (taxıl saxlanılan iri taxta qutu – X.R.) arpadan istədiyi qədər tökdü. Zor-bəla ilə bağlayıb Səlbinazın başına qoydu və üzünü Yunusa tutub əlavə elədi:

- Qurumsaq! Sabah rayonda danışarıq! O kişilər ki, sənin kimi vəzifələrində varlanmaq üçün dəridən çıxırlar, lənət onlara" [4, s.3].

Yazıçının "Sərəncam" hekayəsinin də mövzusu ağır müharibə illərindən götürülmüşdür. Hekayənin qəhrəmanları ataları müharibədə itkin düşən, anaları vəfat edən Kamran, bacısı Səltənət, qonşu qızı, şəfqətli və mərhəmətli Zinyət yazıçının şəxsən müşahidə etdiyi, tanıdığı adamlar olmaqla yanaşı, həm də onun müasirləridir. Gəncliyi üzücü müharibə illərində keçən yazıçı onların simasında müharibə illərində dağ rayonlarında biçilmiş zəmilərdə küləşlərin arasına tökülmüş sünbülləri yığıb aclıq deyilən labüd ölümün əlindən qurtulmağa çalışan uşaqların ümumiləşdirilmiş obrazlarını yaratmaqla yanaşı, zəmanənin insanlığa şərəf gətirməyən Əziz kimi kəmfürsət adamların da portretini verir, yaxşılıqla yamanlığı, xeyirlə şəri üz-üzə qoyur.

Kişilər cəbhəyə göndərildiklərindən, kənddə ayağı yer tutan cəmi iki nəfər qalmışdır. Onlardan biri qoca, oturduğu yerdən ayağa durmağa çətinlik çəkən kolxoz sədri Səməd əmi, digəri isə "dava başlanan kimi özünü çolaqlığa vurub, əlinə əsa alan, əsgərlikdən kölgələnərək kolxozda vəzifədən-vəzifəyə adlayıb yerini bərkidən, bəzilərinin qorxu və ehtiyacdan ona "Əziz dadaş" deyə müraciət etdiyi Əzizdir. Biçilmiş zəmi yerindən çölün qurd-quşuna yem olacaq sünbülləri yığıb ehtiyaclarını az da olsa qarşılamaq istəyən uşaqları zəmidə tutub kolxoz idarəsinə gətirən, gözə kül üfürüb "camaat müharibədə qan tökür, dava edir, bu quldurlar da oğruluğa girişiblər", – deyə körpələri hədələyən Əziz, xalq malının qoruyucusu yox, əlindəki imkanlardan istifadə edərək, hətta xalqın namusuna göz dikən şərəfsizin biridir.

Hekayənin sonluğunda Səməd əminin dilindən söylənilən sözlər yazıçının bu qəribə dünya və müharibə haqqında düşüncələrini ifadə etmək baxımından maraqlı olduğundan, həm də ibrətvericidir.

Hekayədə oxuyuruq: "Səməd əmi başını qaldırıb üzünü izdihama tutdu: - Bu dünyanın nə qəribə həngamələri var. Axı müharibə olmasaydı, xalqın nər oğulları davaya getməsəydilər, – deyə o, damarları çıxmış əlini Əzizə tərəf uzatdı, – sənin kimiləri kənddə arvad-uşağa Allahlıq edərdimi?

Bu sözdən sonra o, əlini uşaqlara tərəf uzatdı: - Buraxın yetimləri!

Uşaqlar gah Əzizə, gah da Səməd əmiyə baxır, nə edəcəklərini bilmirdilər. Aktın cırılmış parçaları onların ayaqlarının altına səpələnmişdi" [5, s.4].

M.Əliyevin nəsrinin müəyyən qismini onun satirik ruhlu hekayələri təşkil edir. Diqqət edilərsə, açıq şəkildə görünür ki, bu qəbildən olan əsərlərin əksəriyyəti müəllifin ədəbi təxəyyülünün məhsulu olmaqdan ziyadə görüb şahidi olduqları hadisələrin bədii inikasıdır. "Hampa oğlu", "İmtahan", "Kötük", "Xəyanət", "Hesabdar Əlibaba" və s. hekayələrdə təsvir olunanlar keçən əsrin 60-cı illərində respublikamızda, xüsusilə cənub bölgəsində baş vermiş real həyat hadisələrini özündə təcəssüm etdirir.

"Hampa oğlu" hekayəsinin qəhrəmanı Fərman kişi ağır vəziyyətdə ola-ola, həkim Rəcəbin onu müayinə etməsini ona görə istəmir ki, o, onların nəslindən deyil, yad tayfadandır. Bu kişinin zehniyyətində elə bir fikir formalşıb ki,

yad tayfalardan olanlar nə qədər yaxşı əməllər sahibi olsalar da, "hampa oğlu" olduqları üçün onlara bel bağlamaq olmaz. Onu çətin şəraitdə əməliyyat edib, labüd ölümdən qurtaran həkim haqqında dediyi sözlər oxucuda satirik gülüş doğurur. Oğlu Məzahir ondan soruşanda ki, ata, Rəcəb yaxşı oğlandır, ya yox? Fərman kişi nəfəsini çiyinlərindən çəkərək cavab verir: "Rəcəb yaxşı həkimdir, heyif, hampa oğludur" [6, s.2].

Ədibin "Axırıncı imtahan" hekayəsində Azərbaycanda keçən əsrin 60-70-ci illərində ictimai bəlaya çevrilmiş bir problem – ali və orta ixtisas məktəblərinə qəbul zamanı rüşvətin ayaq tutub yeriməsi tənqid hədəfi seçilmişdir. Məcid qəbul imtahanlarında ya qiymət alaraq müsabiqədən keçmir, ya da cavab verdiyi halda, "qeyri-kafi" ilə qiymətləndirilərək, məktəbə qəbul oluna bilmir. Oğlundan qat-qat zəif oxuyan qonşu uşaqlarının müxtəlif vasitələrlə – rüşvət yolu ilə məktəbə daxil olmaları ananı məcbur edir ki, o da bu yola əl atsın. Tanıdıqları Hüseynbala adlı bir adam ananı inandırır ki, əgər "məzənnəni pozmayıb" tələb olunan pulu versə, oğlunu məktəbə düzəldəcək. Oğul nə qədər anasını bu yoldan çəkindirməyə çalışsa da, xeyri olmur.

İmtahanlar başlanır. Hüseynbala onları arxayın salır ki, pul çatdırılıb və hər şey qaydasındadır. Birinci imtahanda əsgərlikdən gələn Məcid "kafi" qiymətləndirilsə də, axırıncı imtahanda vəziyyət dəyişir. İmtahan zamanı nə Hüseynbala gəlib çıxır, nə də komissiya üzvləri Məcidin üzünə belə baxmır. Hüseynbalanın toruna düşən Məcid kəsilir. İmtahandan suyu süzülə-süzülə çıxan Məcidi indi yalnız bir şey düşündürür: "Aldadılmış anasının vəziyyəti necə olacaq və verdikləri pulu Hüseynbaladan necə geri alacaqlar".

Məcidin dili ilə nağıl olunan hekayə belə bir ibrətamiz sonluqla tamamlanır: "Evə tələsirdim. Qəflətən bir "Volqa" maşını yanımda durdu. Hüseynbala aşağı düşüb mənə sarı gəldi. O, irişə-irişə:

- Hə, necə oldu? Tapşırmışdım..

Özümü saxlaya bilmədim. Günlərdən bəri qəlbimdə təlatümə gələn nifrət dəniztək coşdu: – Rədd ol, dəllal!" [8, s.4].

Eyni ruh müəllifin " Kötük" hekayəsinə də hakimdir. Hekayədə tənqid obyekti "orta təhsili qiyabi, ali təhsili qiyabi, alimlik dərəcəsi qiyabi", "işə istədiyi vaxt gələn, istədiyi vaxt gedən, nə qayda, nə də intizam gözləyən" bir idarə müdiridir. Onun hansı əqidənin sahibi olduğunu bilən Fərman kimi həqiqi alim də, Surxay kimi vətənpərvər ziyalı da həqiqəti bilə-bilə susmağa üstünlük verirlər. Çünki onlara gün kimi aydındır ki, onların haqq sözünü eşidən olmayacaq.

Hekayədə adı çəkilməyən anonim müdir zəmanənin yetişdirməsidir. Vaxtında bunlara qarşı mübarizə aparılmadığından, onlara yaşıl işıq yandırıldığından vəziyyət belə bir şəkil alıb. Başqa əsərlərində olduğu kimi, bu hekayəsində də müəllif belə bir qənaətə gəlir ki, belə adamlardan yaxa qurtarmaq üçün susmaq yox, mübarizə aparmaq lazımdır və müəllif idealını Fərmanın dili ilə belə bəyan edir: "Sən haqlısan, qardaş! Göz yummuşuq, susmuşuq. Bizim müdir yoğun palıd baldırına söykənmiş kötükdür. Biz bu baldırı və bu kötükləri kəsməliyik" [9, s.3].

"Xəyanət" hekayəsində təsvir olunan müdir "Kötük" hekayəsində obrazı yaradılmış müdirin oxşarı olsa da, ondan fərqli xüsusiyyətlərə malikdir və daha qorxulu adamdır. Özündən razı, tanımadığı, vəzifəcə özündən böyük bildiklərinin qarşısında kiçilən, tabeçiliyndə olanları incitməkdən, onları get-gələ salmaqdan həzz alan Yavər, əslində, ailm olmayan, dissertasiyasını başqasına yazdıranın birisidir.

Ona dissertasiya yazan, özünün dediyi kimi, "vicdanına xəyanət edən" Akimdir. O Akim ki, müharibədən qayıdıb ali və aspirantura təhsli aldıqdan sonra ailələrindəki bədbəxtliklər və maddi sıxıntılar onu bu işə getməyə vadar etmiş, üçillik yuxusuz gecələrinin zəhmətini, fikrini, zəkasını, düşüncəsini "pula yox, ehtiyaca satmağa" məcbur olmuş və beləliklə, Yavər müdafiə edərək alim və idarə müdiri, Akim isə onun qəbuluna girməyə belə çətinlik çəkən yazığa çevrilmişdir.

Akim məcburi zərurət ucbatından etdiyi "günahın" alovları ilə qovrulsa da, xeyri yoxdur. O, etdiyi günahın böyüklüyünü tələbə dostu Rəhimə belə iqrar edir:

- Mənim bu sağ qalmış əlimi də kəsmək lazımdır, kəsmək! Niyə? Çünki mənim bu əlim müqəddəs amalı olan bir xalqın böyük ailəsinə, nəcib alimlər sırasına bir fiqur qoşmuşdur. Gör indi o, onlar nə qədər fiqurlar qoşacaqlar" [7, s.4].

## Nəticə / *Conclusion*

Yazıçı Məmmədhüseyn Əliyevin adıçəkilən hekayələri haqqında fikirlərimizi ümumiləşdirərkən belə bir yekun qənaətə gəlirik ki, o, digər janrlarda yazdığı nəsr əsərlərində olduğu kimi, hekayələrində də həyatın burulğanlarında formalaşan insan xarakterlərinin təsvirinə üstünlük vermiş, həyat həqiqətlərinə sadiq qalaraq, xeyirin şər üzərində qələbə çalmasını arzulamış, oxucularını həqiqət, işıqlı əməllər uğrunda mübarizəyə səsləmişdir.

## Ədəbiyyat / *References*


1. Əliyev, M. Lənkəran hekayələri. – Bakı: Gənclik, 1967.
2. Əliyev, M. Dəmir arxa. – “Ədəbiyyat və incəsənət” qəzeti, 11 avqust 1973-cü il.
3. Əliyev, M. Müəllim. – “Azərbaycan müəllimi” qəzeti, 21 iyun 1972-ci il.
4. Əliyev, M. Saçaqlı şal. – “Leninçi” qəzeti, 11 sentyabr 1971-ci il.
5. Əliyev, M. Sərəncam. – “Ədəbiyyat və incəsənət” qəzeti. 13 sentyabr 1969-cu il.
6. Əliyev, M. Hampa oğlu. – “Bolluq uğrunda” qəzeti, 16 iyul 1966-cı il.
7. Əliyev, M. Xəyanət. – “Leninçi” qəzeti, 22 dekabr 1972-ci il.
8. Əliyev, M. Axırıncı imtahan. – “Ədəbiyyat və incəsənət” qəzeti, 7 yanvar 1978-ci il.
9. Əliyev, M. Kötük. – “Leninçi” qəzeti, 23 mart 1968-ci il.
10. Əliyev, B. Məmmədhüseyn Əliyevin nəsri. – “Şəfəq” jurnalı, 1998, № 1.
11. Məsudi Dövran. Məmmədhüseyn Əliyevin yaradıcılıq yolu. – Bakı: “Elnur-P”, 2005.


# ХУДОЖЕСТВЕННОЕ ОТРАЖЕНИЕ ЖИЗНЕННЫХ РЕАЛИЙ В РАССКАЗАХ МАМЕДГУСЕЙНА АЛИЕВА


**Халида Рагимова**
Ленкоранский Государственный Университет. Азербайджан.
E-mail: qumu_88@mail.ru



**Резюме.** В 60-90-е годы XX века одним из писателей, который отличается своими неопровержимыми заслугами в процессе формирования литературной среды Ленкорани, является Мамедгусейн Алиев. М.Алиев в последующие времена перешел в прозу, будучи прозаиком и драматургом, завоевал уважение читателей в Азербайджане и в бывшем Советском Союзе. Жанр рассказа занимает особое место в творчестве М.Алиева. Первый опубликованный рассказ под названием «Сельский учитель» был опубликован в 1957 году на страницах газеты «Учитель Азербайджана», после чего его книга под названием «Ленкоранские рассказы», куда были включены одиннадцать рассказов драматурга, была опубликована издательством «Гянджлик» в 1967 году. В этих рассказах нашли свое отражение не только героизм древнего народа, не только раны, нанесенные кровавыми войнами, не только годы жизни учителя, а также те самые трудности, с которыми столкнулись молодые писатели. В рассказах писателя под названиями «Нарындж ханум», «Аваз», «Севиндж», «Чего-то не хватает», «Последующее раскаяние», которые были опубликованы в книге «Ленкоранские рассказы», ясно ощущается атмосфера земли Ленкорани, ее исторического прошлого, и атмосфера сегодняшнего дня, трудолюбие и гостеприимство народа, всецело то самое настроение, которое воцарилось благодаря литературной среде Ленкорани, которая считается центром Южного региона. Рассказы писателя, сотворенные писателем в последующие годы и опубликованные в печатных изданиях в различные годы, то есть такие как «Без подписи», «Железная опора», «Учитель», «Шаль с бахромой», «Распоряжение»,

«Сын Хампы», «Экзамен», «Пень», «Предательство», «Счетовод Алибаба», «Последний экзамен», вне зависимости от времен своего сотворения, воссоединены под общим духом преданности жизненным реалиям, возражения против изъянов общества.
Исследование рассказов М.Алиева дает основания полагать, что, как и в других прозаических произведениях, написанных в других жанрах, писатель отдал предпочтение описанию человеческого характера, сформированного в водовороте жизни, и оставаясь преданным реалиям жизни, как правило, желал, чтобы доброта побеждала зло, и призывал читателей к борьбе за истину и за светлые поступки.
**Ключевые слова:** литературная среда, жанр расказа, заслуга, тема, историческое прошлое